KAMRAN İMANOV

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ VƏ MÜƏLLİFLİK HÜQUQU: İMKANLAR VƏ PROBLEMLƏR

Bakı – 2019

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Kütləvi informasiya vasitələri və müəlliflik hüququ: imkanlar və problemlər. Bakı, 2019**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Azərbaycan Mətbuat Şurası ilə birgə 14 may 2010-cu il tarixində "Kütləvi informasiya vasitələrində müəlliflik hüququ: problemlər və həlli yolları" mövzusunda dəyirmi masada etdiyi çıxış sözü və "Kütləvi informasiya vasitələri və müəlliflik hüququ: imkanlar və problemlər" adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2017, 2018**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2019**

# Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

«KİV-də müəlliflik hüququ: problemlər və həlli yolları» mövzusunda Azərbaycan Mətbuat Şurası ilə birgə keçirdiyimiz Dəyirmi masanın əsas məqsədi jurnalistlərlə və media-rəhbərləri ilə hüquqi-maarifləndirmə silsiləsində mətbuatdakı müəlliflik və informasiya hüququna riayət edilməsi və yaranan problemləri ilə bağlıdır. Məsələ ondadır ki, KİV-in fəaliyyət məkanı – informasiya və yaradıcılıq məkanıdır və KİV – müəllif-hüquq və informasiya hüququ sisteminin subyektlərindən biridir. Müəllif-hüquq obyektləri özü-özlüyündə informasiyanın müəyyən növü olmaqla, informasiyadan, xüsusən ilkin informasiyadan ciddi surətdə fərqlənirlər. İlkin informasiyaya «xəbərlər formatı» da deyirlər, yəni faktlar, hadisələr, olaylar haqqında informasiya xarakterli bildirişlər. Bu informasiya yaradıcılıq əlaməti olmayan, «simasızlaşmış» məlumatdır. O ki qaldı müəlliflik hüququ obyektlərinə – əsərlərə, buradakı informasiya şərh, təhlil, digər yaradıcılıq əlamətləri vasitəsilə jurnalist tərəfindən işlənib fərdiləşir, subyektiv fikir və mülahizələrlə zənginləşdirilir.

Hörmətli dostlar!

KİV və xüsusən onun ən geniş yayılan qolu mətbuat əslində «informasiya-vasitə-cəmiyyət» sxemi üzrə fəaliyyət göstərir və hətta KİV abreviaturası həmin məna daşıyır: «informasiya-vasitə-kütlə» və burada kommunikator olan jurnalistlərin rolu əvəzsizdir.

Azərbaycan dövləti jurnalist fəaliyyətinə, KİV məsələlərinə böyük diqqət və qay yanaşır. «Söz və mətbuat azadlığı demokratik cəmiy prioritet dəyərlərindən biridir» - deyən cənab Prezident İlham Əliyevin bu fikri dövlət başçısının ölkəmizdə mətbuat azadlığının ən böyük təminatçısı olduğunu bir daha nümayiş etdirir. Ölkə başçı-

sının 31 iyul 2008-ci ildə imzaladığı «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında» Sərəncamı və 3 aprel 2009-cu ildə imzalanan digər sənəd – «Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında» Sərəncam Azərbaycanda müstəqil mətbuatın inkişafına yeni mərhələ gətirdi. Dövlət başçısı «dövlət orqanları ilə KİV arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, KİV-in iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda KİV-in rolunun artırılması» qarşımıza qoyduğu məqsəd cənab Prezidentin KİV-ə qayğısının və dəstəyinin bariz nümunəsidir.

Azərbaycan demokratik, hüquqi dövlət qurur və cənab Prezident İlham Əliyevin bəyan etdiyi kimi, biz bazar iqtisadiyyatına yönəldilmiş mülki və iqtisadi islahatlarda artıq keçid dövrünü bitirmişik. Bu isə hamımızın qarşısına növbəti məsuliyyətli vəzifələr qoyur. Odur ki, hüquqi savadlılıq və vətəndaşlıq şüuru yeniləşən Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir.

KİV-in cəmiyyət və hüquqi siyasət arasında vasitəçi kimi mərkəzdə durması, jurnalist fəaliyyəti isə ictimai proseslərə böyük təsir göstərməsi jurnalist-kommunikatorun peşəkarlıq səviyyəsinin yüksəkliyini və hüquqi biliklərini tələb edir. Məlumatlardan ədalətli istifadə, cəmiyyəti məlumatlandırmaq məqsədi ilə, kütləyə səliqəli və məsuliyyətli müraciət edilməsi ilə bağlı jurnalistlərin hüquqi biliklərin yüksək səviyyədə olması – məsələnin bir tərəfidir.

Jurnalistlərin və KİV-in ümumiyyətlə müəllif-hüquq sisteminin subyekti olması, müəllif-hüquq məkanında çalışması və bununla öz məhsulunun hazırlanmasında hüquqi biliklərin artırılması, məsələnin digər tərəfidir. Əgər sadalanan məsələlər KİV dairəsindəki mülki hüququn iki

növ obyektlərinə, yəni mülkiyyət hüququnun obyekti olan informasiyaya və müəlliflik hüququ obyekti olan əsərlərə aiddirsə, jurnalistlərin KİV redaksiyaları ilə bağlı münasibətləri – xidməti əsərlər, sahənin tənzimlənməsinə üstəlik əmək hüququnun normalarının cəlb edilməsini tələb edir.

O da, təcrübədən irəli gələn, bir həqiqətdir ki, fakt və olayların hüquqi qiymətləndirilməsi hələlik istənilən səviyyədə olmamasıdır, üstəlik jurnalist məhsulunun yaradılmasındakı, yaradıcı prosesin nəticələrindəki hüquq pozuntuları özünü büruzə verir. Araşdırmalarımız göstərir ki, mətbuat ən çox hüquqlar pozulan sahələrdən biridir. Deməli, hüquqi maarifləndirməyə böyük ehtiyac duyulur, böyük tələbat vardır.

Hörmətli dostlar!

Müəlliflik hüququnun yaranmasının başlıca səbəbi yaradıcılığın fərddən ayrılmaz və ən «məxsusi» olan mülkiyyət yanaşmasından və cəmiyyətin, hamımızın aldığı fayda və xeyrin dərk edilməsindən irəli gəlir. Çünki yaradıcılıq intellektual dəyərlərin yeganə mənbəyidir və insanların təbii resurslarının məhsuludur. Yaradıcılıq – sərbəstlik, elə azadlıq deməkdir. Belə ki, müəlliflik hüququ yaradıcılıq nəticələrini qorumaqla, azadlıq, sərbəstlik nəticələrini qoruyur. Müəlliflik hüququ hüququn ümumilik prinsipinə əsaslanaraq cəmiyyətin hər bir üzvünə şamil olunur, hər şəxsə aid edilir və bununla hər bir insanın bənzərsizliyini, təkrarolunmazlığını, unikallığını təsdiqləyir. Özü də müəlliflik hüququ yaradıcı prosesi tənzimləmir, Hegel demişkən «yaradıcılıq məkanında sərhəd qoymur», yaradıcılıq nəticələrini qoruyur.

Odur ki, söz azadlığını, mətbuat sərbəstliyini başda tutan jurnalist ordumuz azadlığın, sərbəstliyin nəticələrini qoruyan müəlliflik hüququna hörmət və ehtiramla yanaşmalıdır. Söz azadlığını ifadə edənlər yaradıcılıq azadlığının nəticələrinə riayət etməlidirlər.

Hörmətli dostlar!

Bir məsələyə də diqqət yetirməyinizi xahiş edirəm. Söhbət İnternet-yayımından, İnternet-nəşrlərindən gedir. Mütəxəssislərin dünya üzrə məlumatlarına əsasən, İnternet-nəşrlərinin təxminən 30% həqiqətən günün yeniliklərini yaradır, qalan 70% isə onları sadəcə olaraq köçürdür. Belə ki, əgər İnternet şəbəkəsində fonoqram istehsalçılarının (müəllif və ifaçılar da daxil olmaqla) hüquqlarını pozan bir qayda kimi adi vətəndaşlar – şəbəkə-istifadəçiləri tərəfindən törədilirsə (məsələn, «pirinq»), İnternet-nəşrlərinin hüquqları isə şəbəkədə elə İnternet-nəşrləri tərəfindən pozulur. Həqiqətən, İnternetdəki adi istifadəçilərə günün yeniliyi kontenti yayım üçün deyil, yalnız özünün informasiya istehlakı üçün gərəklidir.

Elə mütəxəssislərin fikrincə də, informasiya agentliklərində ən çox məsrəflər tələb edən də xəbərlər bazisidir, «xəbərlər formatı»dır, belə ki, bu iş çoxlu müxbirlər və infrastruktur tələb edir. Bu, həm də informasiya toplayıcıları olan jurnalistlərin ağır əməyidir.

Lakin qanunvericilik hadisələr və faktlar haqqında informasiya xarakterli xəbərləri müəlliflik hüququnun obyektləri kimi qorumur. Belə ki, haradasa və kiminləsə baş vermiş hansısa eksklüziv xəbər dərhal başqa İnternet KİV-lərində köçürülərək təkrar və istinadsız dərc olunur. Çoxları belə fikirləşirlər, bir halda ki, yeni xəbərlərlə bağlı informasiya müəlliflik hüququ ilə qorunmur, onda onları sakitcə istifadə etmək olar. Doğrudan da, xəbərlər o zaman müəlliflik hüququnun obyekti olur ki, informasiya xarakterli xəbər çərçivəsindən çıxır, yəni artıq özündə şərhləri, təhlilləri saxlayır, yaradıcılıq məhsuluna çevrilir.

Bundan əlavə, peşəkar jurnalist üçün xəbərləri öz sözləri ilə yazmaq, onu orijinalla müqayisədə az tanınan hala salmaq və heç bir ilkin mənbəyə istinad etmədən öz saytında yerləşdirmək elə də çətin iş deyildir. Belə halda

o, hesab edir ki, istinadsız istifadə etdiyi faktlar haqqında məlumatlar qorunmur.

Lakin bu heç də belə deyildir. Baxmayaraq ki, yeniliklər haqqında xəbərlər və faktlar haqqında məlumatlar müəlliflik hüququ ilə qorunmur, bununla belə, onlar operativ, vaxtında çatdırılması ilə bağlı müvafiq dəyərə malikdirlər. Və təsadüfi deyildir ki, qədim romalılar demişkən, «daha tez çatdıran ikiqat çatdırandır». Aydındır ki, bu informasiyaya olan mülkiyyət hüququnu sirr kimi, məxfi saxlamaqla məhdudlaşmış informasiya kimi qorumaq mümkün deyildir. Lakin belə kütləvi informasiya qorunur.

Əgər hansısa agentlik xəbərləri mənimsəyirsə və onları özünün məhsulu kimi qələmə verirsə, deməli, o, özgə əməyini mənimsəyir və rəqiblərin məhsulunu əyri yolla istifadə edir və buna görə «Haqsız rəqabət» haqqında Qanuna əsasən məsuliyyət daşıyır.

Beləliklə, hüquqi biliklərin zəif olması, informasiya və müəlliflik hüququ obyektlərinin davranış qaydalarını kifayət qədər bilməməsi ilə yanaşı KİV-in problemlərin biri də adi informasiya və müəlliflik hüququ obyektləri – əsərlərin arasındakı nisbəti ilə lazımi səviyyədə tanış olmamasıdır.

Bir sözlə, jurnalistə məxsus olmayan informasiya xarakterli məlumat nə zaman bitir və hansı anda, nə cür şərtlərlə jurnalistə məxsus olan əqli mülkiyyət obyektinə çevrilir?

Hörmətli dostlar!

Biz bu silsilə görüşləri başlayaraq, ümid edirik ki, hansısa, kiçik də olsa, öz töhfəmizi KİV məkanındakı hüquqi tənzimləməyə verə beləcəyik. Lakin işlərimizi istədiyimiz səviyyəyə qaldırmaq üçün atalar sözü ilə desək bir zəruri şərt var: «Ədaləti qıraqda axtarmamaq üçün, özümüz ədalətli olmalıyıq».

Uğurlar arzulayıram və diqqətinizə görə təşəkkürümü bildirirəm.

# Kütləvi informasiya vasitələri və müəlliflik hüququ: imkanlar və problemlər

## I. Əqli mülkiyyət (ƏM), əqli fəaliyyət (ƏF) və əqli fəaliyyət nəticələri (ƏFN)

**1. ƏM anlayışının:**

- təsbit olunması (Konstitusiya 1995, ÜƏMT-ni təsis edən Konvensiya 1967);
- obyektiv və subyektiv tərkibi;
- mədəni, sosial-iqtisadi və informasiya-kommunikasiya təbiəti;
- məzmunu, forması və təyinatı;
- fəlsəfi, iqtisadi və hüquqi mənası.

**2. ƏM: "Əql" və "Mülkiyyət" (ziddiyyət və ya vəhdət):**

- yaradıcılıq və yenilikçilik ƏF-in ən yüksək zirvəsi, insanın universal təbii resursları, haqları və azadlıqları;
- "Mülkiyyət", ancaq "əmlak" mənasında olmayan, hüquqlar və tələblər kimi hüququn müdaxiləsi.

**3. ƏF nə zaman ƏM çevrilir?** ["Səadət gətirən əql və biliklərdir, "Qutadqu-bilik"].




**Müəlliflik hüququ ƏFN-nin ən geniş yayılmış qoludur**

## İnformasiya və ƏFN (əlaqə və fərq)

**1. İnformasiya** – təqdimat formasından asılı olmayaraq, şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlar [“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanun].

**2.** İnformasiyanın müxtəlif növləri (məsələn, “kommersiya sirri”, “dövlət sirri”, “kütləvi informasiya” və s.).

**$3^1$. Kütləvi informasiya** – axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikası Qanunvericiliyi ilə məhdudlaşdırılmayan, **ümumi istifadə üçün nəzərdə tutulmuş mətbuat, audio, audiovizual xəbər və digər məlumatlar** [“Kütləvi informasiya vasitələri (KİV) haqqında” Qanun].

**$3^2$. Kütləvi informasiya** - əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikası Qanunvericiliyi ilə məhdudlaşdırılmayan və **ümumi istifadə üçün təyin olunmuş, sənədləşdirilmiş informasiya** (yəni “maddi daşıyıcıda qeyd olunmuş və identifikləşdirilməsinə imkan verən rekvizitlərə malik olan informasiya”) [“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanun].

**4. KİV** - dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet, kinoxronika proqramları və digər yayım formaları.

**5.** “**Müəlliflik hüququ ilə qorunmayan obyektlər”** sırasında – “günün yenilikləri, müxtəlif hadisə və faktlar barədə informasiya xarakterli məlumatlar”.

**6. İnformasiya təsnifatı:**




**7.** 


- ƏFN hər zaman informasiyadır, informasiya isə mütləq ƏFN deyil.

***"Daha tez çatdıran ikiqat çatdırandır"***
[Latın kəlamı]

**8.** KİV fəaliyyət məkanı




KİV "abbreviaturası" ("kütlə", "informasiya", "vasitə").



- “Xəbərlər formatı” – obyektiv əks olunmuş ilkin informasiya.
- KİV ya ilkin informasiyanı (“xəbərlər formatını”), ya da onun əsasında hazırlanmış törəmə informasiyanı çatdırır.
- Törəmə informasiya jurnalist tərəfindən işlənib fərdiləşdirilə bilər.
- İlkin informasiya müəlliflik hüququ ilə qorunmur, törəmə informasiya isə qoruna bilər.

*Hüquq borcu doğmur, borc hüququ doğur.*
(Şatobrian)

## II. ƏM mülki-hüquq məkanında

**1.** ƏM tanınması səbəbi: Cəmiyyətin xeyir və faydasının götürüldüyünü dövlət tərəfindən dərk edilməsi (yalnız yaradıcılara hörmət və ehtiram deyil).

**2.** ƏM tanınması prinsipi: Tarazlıq siyasəti, kompromislər məcmusu.

**3.** ƏM – ƏFN qorunması məqsədilə onların yaradıcılarına və hüquq sahiblərinə verilən **müstəsna hüquqlardır**.

ƏM obyekti üzərində onu yaradanın və ya hüquq sahibinin hökmdarlığı [K.Popper: Biliklər (ƏM) maddi (əşya) mülkiyyətə qarşı].

**4.** Azərbaycanın ƏM doktrinası: ƏM – müstəqil institutu, mülkiyyət hüququnu tamamlayan mülkiyyətdir.

**5.** ƏM – Mülki hüququn tərkib hissəsi (əmlak dəyəri olan qeyri-maddi nemət (ƏFN)).






**ƏM-in və informasiyalı məlumatların Mülki hüquqdakı təsnifatı**



# III. Əqli mülkiyyət obyektlərinin təsnifatı




**ƏM-in üç növü:**
1) Müəlliflik hüququ.
2) Patent hüququ.
3) Qeyri-ənənəvi ƏM hüququ.

**Şəxsi qeyri-əmlak hüquqlar: yaradıcılıq meyarı:**
a) Bütün növ əsərlər.
b) İfalar.
v) İxtiralar, faydalı modellər və sənaye nümunələri.
c) İnteqral sxem topologiyaları.

# IV. Əqli mülkiyyətin milli qanunvericilik bazası, təsnifatı və sərəncamçılığı




ƏMH qoruyan 2 müdafiə xəttləri:

I xətt – 7 qanun və müvafiq Məcəllələrin müddəaları.

II xətt – haqsız rəqabət və kommersiya sirri haqqında qanunlar və bir sıra digər qanunlar.

V.




**2. “Əsər nə deməkdir?”** (Müəllif-hüquq qanunvericiliyində açıqlanmır).

**Yaradıcılıq fəaliyyəti nəticəsi olan və obyektiv formada əks olunan – müəlliflik hüququ obyekti - əsər qəbul olunur.**

*“Şəxsi qeyri-əmlak hüquqlar bölünməz və özgəninkiləşdirilməz olub, əmlak hüquqlarından asılı olmayaraq müəllifə məxsusdur...”*

## Şəxsi qeyri-əmlak hüquqları: kontinental və ingilis-amerikan sistemi






## Təsnifat nəticələri

**1. İnformasiya materialları.**

- Fakt, olay, hadisə öz-özlüyündə müəlliflik hüququnun obyekti deyil. Müəlliflik hüququ obyekti kimi onun qəzet, jurnal məlumatında yaradıcı təsviri çıxış edir.
- Hər hansı fakt barədə müxtəlif KİV vasitələrində müstəqil məlumat verilməsi müəlliflik hüququ pozuntusu sayılmır.
- Fakt haqqında məlumatın sözbəsöz, yaxud üstüörtülü şəkildə yenidən çap olunması, digər jurnalistə məxsus olan materialın təqdimatının təkrarlanması müəllif-hüquq pozuntusu sayılır.
- Digər jurnalist tərəfindən aşkar edilmiş, tapılmış faktlar və məlumatlar onun icazəsi olmadan ayrı bir jurnalist tərəfindən istifadə olunursa, bu müəllif-hüquq pozuntusu sayılır (bu halda iddiaçının əlyazması, plyonkası və s. sübutları mövcud olmalıdır.)

**2. Məqalələr.**

**Bir jurnalistin məqaləsindən digər jurnalist nə cür istifadə edə bilər?**

- Məqsəd üçün lazım olan həcmdə sitat gətirməyə yol verilir. Hadisələrdən ibarət icmallar hazırlana bilər.
- Tədris və elmi məqsədlərlə hissələrindən istifadə etmək olar.
- Orijinalının müəllifi bunu qadağan etməmişdirsə, məqalənin bütövlükdə surətini çıxarmaq olar və s.

Bu hallarda bir şərtə əməl edilməlidir:

- istifadə olunan əsərin müəllifinin adı və istifadə olunan mənbə göstərilməlidir.

**3. İntervülər, diskusiyalar və s.**

Bunların xarakterik xüsusiyyəti ondadır ki, şərikli əsər sayılırlar və bu cür əsərlərə müəlliflik hüququ bütövlükdə şərik müəlliflərə məxsus olur. Müəlliflər arasındakı münasibətlər, onlar arasındakı müqavilə ilə tənzimlənir. Əgər şərikli əsər bölünə bilirsə, onda müəlliflərdən hər biri digərindən asılı olmayaraq, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa öz hissəsindən sərbəst şəkildə istifadə edə bilər.

**4. Tərcümələr, anotasiyalar və başqa törəmə əsərlər.**

Xüsusiyyətləri:

- Tərcümə edilən əsərin orijinalının qorunub-qorunmamasından asılı olmayaraq, tərcümə müəlliflik hüququ ilə qorunur.
- Əsərin tərcüməsi və sonrakı istifadə üçün orijinalın müəllifinin razılığı tələb olunur.

**5. Toplular, dövri nəşrlər.**

Xüsusiyyətləri:

- Topluya müəlliflik hüququ bu topluya daxil edilmiş hər bir əsərin müəlliflinin hüquqlarına riayət edilməklə bütövlükdə toplunun müəllifinə məxsusdur.
- Dövri nəşrlərdən istifadəyə müstəsna hüquq fiziki və hüquqi şəxslərə-naşirlərə məxsusdur.
- Topluya, yaxud dövri nəşrlərə daxil edilmiş əsərlərin müəllifləri, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa öz əsərindən istifadə hüququnu saxlayır.

**6. Xidməti əsərlər.**

Xüsusiyyətləri:

- Xidməti əsərlərdən istifadəyə müstəsna hüquqlar, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, işə götürənə məxsusdur.

- Əsərə müəlliflik hüququ xidməti əsərin müəllifinə məxsusdur.
- Əsərdən istifadənin hər növünə görə qonorarın ölçüləri və ödəniş qaydaları işə götürənlə müəllif arasında bağlanmış müqavilə ilə müəyyən olunur.
- Xidməti əsərlərin bu qorunma rejimi ensiklopediyalara və dövri nəşrlərə şamil edilmir.

# VI. Müəlliflik hüququ: məzmun və forma



# VII. Müəlliflik hüququ: “yaradıcılıq” meyarının məntiqi təhlili

1.




2.




**3.** Müəlliflik hüququnda “yeni” və “orijinal” sinonimlərdir, əks halda “plagiat” yaranır.

Müəlliflik hüququnda “orijinal” = “təkrarediləbilməz” = “unikal”.

**NƏTİCƏ: Müəlliflik hüququnun “yaradıcılıq” meyarı “orijinal” olmaqdır.**

# VIII. Müəlliflik hüququnda istisnalar və əsərlərlə bağlı sərbəst istifadə

**Maddə 19. Əsərlərdən informasiya, elmi, tədris və digər məqsədlər üçün istifadə**

Müəllifin və ya müəlliflik hüquqlarının digər sahibinin razılığı olmadan və müəllif qonorarı verilmədən, lakin istifadə olunan əsərin müəllifinin adını və götürülmə mənbəyini mütləq göstərməklə aşağıdakı hallara yol verilir:

1) elmi, tədqiqat, polemika, tənqidi və informasiya məqsədi ilə qanuni dərc edilmiş əsərdən, həmçinin qəzet və jurnallardan, sitatın məqsədinə müvafiq həcmdə çap icmalı formasında qısa parçaların orijinalda və ya tərcümədə sitat kimi verilməsinə;

2) qanuni dərc edilmiş əsərlərdən qısa parçaları müəyyən məqsəd üçün lazım olan həcmdə tədris xarakterli nəşrlərdə, radio və televerilişlərdə, səs və videoyazılmalarda istifadə etməyə;

və s.

*Hər hansı birindən nəyisə özününküləşdirmək – plagiatdır, çoxlarından götürmək isə tədqiqatdır.*
(Mizner, amerika dramaturqu)

## IX. Müəlliflik hüququnun pozulması – əsərdən qeyri-qanuni (icazəsiz) istifadə deməkdir

- Əmlak hüquqlarının pozulması – piratçılıq.
- Şəxsi hüquqların pozulması – **plagiatçılıq** (adətən əmlak hüquqları da pozulur).
- **Plagiatçılıq** – əsərin başqa şəxsin adı altında tam və ya qismən açıqlanması.




Plagiat yaradıcılıq oğruluğudur və bunu törədən şəxs qanunvericiliyə uyğun olaraq mülki, inzibati və cinayət məsuliyyəti daşıyır.

### Sorğu nəticələri

**Müəllif-hüquq sahibləri**
**Daha çox hüquqların pozulması**
1. Mətbuatda
2. Mədəniyyət və incəsənətdə
3. Elm və ədəbiyyatda




**Hüquqların qorunması haqqında məlumatlandır-manın səviyyəsi**

1. Məlumatlandırılır – **65%**
2. Eşidiblər – 22%
3. Bilmirlər – 13%




**Pozulmuş hüquqların bərpası üçün nə etməli**

1. Məhkəməyə müraciət – **70%**
2. Səlahiyyətli orqana – **25%**



**Hüquqların bərpası üçün səylər**
1. Müvafiq tədbirlər görür – **45%**
2. Heç bir addım atmır – 55%




**Maarifləndirməyə ehtiyac duyur – 77%**



**Nəticə:** maariflənmə və
məlumatlandırma işi güclənməlidir.

## X. Plagiatın yaranma mənbələri (törəmə əsərlər, yenidən işlənmə və plagiat)

**1. Törəmə əsər** – mövcud əsərin yenidən işlənməsi deməkdir və müəyyən tələblər ödənilməklə törəmə əsər yeni (müstəqil) əsər kimi qəbul oluna bilər və onun müəllifinə (yaradıcılıq əlaməti mövcuddursa) müəlliflik hüququ şamil edilir.

**2. Törəmə əsərlərin tərkibi**:

- orijinal əsər əsasında müəllifin və ya digər şəxsin icazəli yenidən işlənmiş əsəri;
- tərtib olunmuş əsərlər və bunun nəticəsində yaranan toplular;
- tərcümələr.

**3. Törəmə əsərin** – orijinal əsərdən hüquqi asılılığı mövcuddur və buna görə yenidən işlənmə hüququ orijinal əsərin müəllifinə məxsusdur və icazəli yenidən işlənmiş əsərin istifadəsi orijinal əsərin müəllifinin icazəsi və nəzarəti ilə həyata keçirilir.

**4. Törəmə əsər** tam yeni (müstəqil) olduğu halda da orijinal əsərdən ilkin hüquqi asılılıq mətndə istinadların, həmçinin edilən ədəbiyyatın biblioqrafiyasının göstərilməsini tələb edir.

## 5. Yaradıcılıq müstəqilliyinin səviyyəsi və yeni əsərin orijinal əsərdən hüquqi asılılığı

| № | Yenidən işlənmiş əsərdə yaradıcılıq müstəqilliyinin səviyyəsi | Zahiri formaları | Yeni əsərin hüquqi asılılıq dərəcəsi |
|---|---|---|---|
| 1. | Yeni əsər tam və ya qismən köçürülmüşdür: **Tam asılılıq** | İstər daxili forma (obrazlar), istərsə xarici forma (dil) **tam və ya qismən** mənimsənilib | Orijinal əsərdən tam asılılıq **Tam plagiat** |
| 2. | **Aşağı səviyyəli müstəqillik** | Daxili forma (obrazlar) mənimsənilib, xarici forma (dil) müəyyən mənada dəyişdirilib | Orijinal əsərdən güclü asılılıq **Plagiat** |
| 3. | **Nisbi səviyyəli müstəqillik** | Obrazlar əsasən saxlanılıb, dil örtüyü əsasən dəyişdirilib | Orijinal əsərdən **fəal asılılıq** İstifadə üçün orijinal əsər müəllifindən icazə alınmalıdır (dərslikdə ola bilər, lakin digər |

| | | | |
|---|---|---|---|
| | | | əsərdə dolayısı yolla plagiatın təsdiqidir) |
| 4. | **Yüksək səviyyəli müstəqillik** | Obrazlar yalnız vacib məqamlarda saxlanılıb, dil örtüyünün əksər hissəsi dəyişdirilib [“Orijinal əsərdən **yeni əsərin** yaradılması üçün istifadə”] | Əsər yenidir və onun istifadəsi orijinal əsərin müəllifinin nəzarətindən kənardır Orijinal əsərdən **passiv asılılıq** Orijinal əsərdən istifadə olunması mütləq göstərilməlidir |
| 5. | **Çox yüksək səviyyəli müstəqillik** | Yalnız sitat formasında dil istifadə olunub | **Heç bir asılılıq yoxdur** Sitat vasitəsi ilə istinadlar və mənbənin göstərilməsi |

**Əsərlər və əlaqəli hüquqlar obyektləri rəqəmli mühitdə**

1. Əsərin rəqəmli forması (kontent) obyektiv əks olunmuş hesab olunur və müəlliflik hüququ ilə qorunur.

2. Rəqəmli şəbəkədə müəlliflik hüququ və ya əlaqəli hüquqlar obyektinin istifadəsinin 3 mərhələsi.




3. İstifadə qaydaları hüquq sahibinin şəxsi və əmlak hüquqlarına riayət edilməsi ilə həyata keçirilir.

4. WEB-səhifə və ya saytda istifadə qaydaları göstərilə bilər (ödənişli və ya ödənişsiz surətçıxartma və ya əldə edilmə).

5. Bu cür qaydanın olmaması ən azı şəxsi hüquqlara riayət edilməsi tələbi ilə həyata keçirilir.

*Bilik – həyat funksiyasıdır”.* (D.Kempbell)

# XI. İnternet və müəlliflik hüququ

1. Virtual məkanda “Digital right” (“Rəqəmli hüquqlar”) qanunvericiliklə müəyyən edilən əmlak və şəxsi müəllif hüquqlarına bərabərdir.

2. Rəqəmli kontentin xüsusiyyəti: əqli nəticələrinin mübadiləsi “нет этикет” – “özünü tənzimləmə” [Burada sərbəst istifadə hüquqları və qorunan şəxsi hüquqlardır].

3. “Copyright”a alternativ modellər (açıqlanmış əsərlərin sərbəst istifadəsinə aid məhdudiyyətlərin götürülməsi) (Ficher, Creative Commons, Dolqin) “Modellər” [Bu və ya digər formada əmlak hüquqlarını güdür].

4. “Copyleft” modeli.

a)




b)




c) “Copyleft” – digərlərinə əsərlərdən və törəmə əsərlərdən istifadəyə məhdudiyyət qoymaq imkanını istisna edən sərbəst yayılmasıdır. “Copyleft” “Copyright” qanunvericiliyinin əksinə tətbiqidir [“copy” – nüsxə, omonim, “right” – “hüquq”, “**sağ**”, “left” – “**sol**” → qeyri-hüquqi mənada “copyleft” – “copyright”ın **antonimidir**].

*Ədaləti qıraqda axtarmamaq üçün özun ədalətli ol.*
(Atalar sözü)

# Mündəricat


Çıxış sözü ........................................................ 3

I. Əqli mülkiyyət (ƏM), əqli fəaliyyət (ƏF) və əqli fəaliyyət nəticələri (ƏFN) .......................... 8

II. ƏM mülki-hüquq məkanında .......................... 12

III. Əqli mülkiyyət obyektlərinin təsnifatı ............. 14

IV. Əqli mülkiyyətin milli qanunvericilik bazası, təsnifatı və sərəncamçılığı ............................. 15

V. ........................................................................ 16

VI. Müəlliflik hüququ: məzmun və forma ............. 21

VII. Müəlliflik hüququ: "yaradıcılıq" meyarının məntiqi təhlili .................................................. 22

VIII. Müəlliflik hüququnda istisnalar və əsərlərlə bağlı sərbəst istifadə ..................................... 23

IX. Müəlliflik hüququnun pozulması – əsərdən qeyri-qanuni (icazəsiz) istifadə deməkdir ...... 24

X. Plagiatın yaranma mənbələri (törəmə əsərlər, yenidən işlənmə və plagiat) .............. 27

XI. Internet və müəlliflik hüququ ......................... 31


---


Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.